## Bölgələrin sosial-iqtisadi inkişafı yeni mərhələyə qədəm qoyur

# Dağlar qoynunda Şəki



*Azərbaycanın şimal-qərb zonasına, Şəki-Zaqatala iqtisadi rayonuna aid olan Şəkinin ərazisi 2,43 kvadratkilometr, əhalisi 168 min nəfərə yaxındır. Bir şəhər, iki qəsəbə və 68 kənddən ibarət olan qədim Şəkinin sənayesinin əsasını ipəkçilik, yeyinti məhsulları, toxuculuq, tikinti materialları, kənd təsərrüfatını isə taxılçılıq, üzümçülük, tütünçülük, heyvandarlıq, meyvə və giləmeyvə istehsalı təşkil edir. Ölkəmizin şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında, dəniz səviyyəsindən 632 metr yüksəklikdə yerləşən Şəkinin ərazisindən 3 əsas çay keçir: Kiş, Şin, Daşağıl çayları. Bol su ehtiyatı, normal rütubət balansı, məhsuldar torpaqları, zəngin meşə örtüyü var. Füsunkar təbiəti, nadir tarix-memarlıq abidələri ilə Şəki Azərbaycanın mühüm turizm regionu sayılır.*

Öz əsrarəngiz gözəlliyi və qədimliyi ilə nə qədər diqqət çəkən olsa da, "Şəki" sözünü eşidən kimi, ilk öncə göz önünə onun mehriban, gülərüz, qonaqpərvər insanları gəlir. Bu insanlar ilk ünsiyyətdəncə həmsöhbətlərinin qəlbində yer almağı bacarırlar. Şəkidə və şəkililər arasında insan heç vaxt darıxmır, özünü yad kimi hiss etmir. Bu keyfiyyət də bir çox dəyərlər kimi, ulu Yaradanın şəkililərə bəxşişidir. Məhz bunun nəticəsidir ki, Şəkinin elə bir günü yoxdur ki, qonaq-qarasız olsun. Qonaqlar da yaxın-uzaq ellərdən gəlir, daha doğrusu, dünyanın hər yerindən bura üz tutanlar olur. Təsadüfi deyildir ki, bir çox beynəlxalq tədbirlər üçün də məkan kimi Şəki seçilir. Sözsüz ki, qonaqpərvərlikdən, ürək genişliyindən əlavə, Şəkinin son dövrlər sosial-iqtisadi və tikinti-quruculuq işləri baxımından xeyli inkişaf etməsi, yeni iş yerlərinin açılması, insanların gün-güzəranının yaxşılaşdırılması da əsas amillərdəndir. Bir məqamı qeyd etmək yerinə düşər ki, tədbirlərdən KİV əməkdaşları kənarda qalmır. Xüsusi vurğulamaq istərdik ki, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Nazim İbrahimovun, onun təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini, KİV-lə əlaqəyə məsul Zərinə Cavadovanın mətbuat işçilərinə diqqəti, hər hansı bir informasiya üçün operativ reaksiyaları bir çox rayonlara örnək ola bilər.

Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramından irəli gələn vəzifələr Şəkinin də hərtərəfli inkişafına təkan vermişdir. Həmişə geniş iqtisadi imkanları və bu imkanlardan səmərəli istifadə etmək təcrübəsi ilə fərqlənən rayonda belə ənənələr indi də uğurla davam etdirilir. Bölgəyə səfəri çərçivəsində Şəkidə olarkən ölkə Prezidenti İlham Əliyev demişdir: "Şəkidə çox böyük quruculuq işləri aparılır. Şəhər gözəlləşir, öz tarixi simasını saxlamaqla müasirləşir, abadlaşır, yeni məktəblər tikilir, mədəniyyət ocaqları, küçələr abadlaşır. Yəni Şəki belə yaxşı inkişaf edir. Mən buna çox sevinirəm. Amma istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin və insanları narahat edən bütün məsələlər öz həllini tapsın".

Ölkə Prezidentinin tövsiyələrindən sonra görülən işlərin sürəti daha da artmış, bir çox məsələlərin həlli ilə bağlı mühüm tədbirlər görülmüşdür. Bunu həmsöhbətlərimiz də təsdiqlədi.

**Nazim İbrahimov, Şəki Şəhər İcra Hakimiyyəinin başçısı:** - Möhtərəm Prezident İlham Əliyevin daxili siyasətinin əsas istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Nazirlər Kabinetinin 2008-ci ilin yekunlarına həsr olunmuş geniş iclasında çıxış edən cənab Prezident İlham Əliyev demişdir: "İndiyədək Sahibkarlığa Kömək Milli Fondu, yəni dövlət tərəfindən yerli sahibkarlara 400 milyon dollara qədər kredit resursları verilibdir. Böyük məbləğdir. Artıq bu ildən o kreditlərin bir hissəsi qayıdacaqdır və hesab edirəm ki, o qayıdan vəsait yenidən kredit şəklində, amma daha da böyük həcmdə ölkə iqtisadiyyatına yatırılmalıdır. Biz bu yolla sahibkarları dəstəkləyəcəyik. Həm də kredit resurslarımız daha da artacaqdır".

Cənab Prezidentin çıxışından sonra bu məqsədlə Şəkidə sahibkarlarla müxtəlif görüşlər keçirilmiş, onlar arasında maarifləndirmə işləri aparılmış, qarşıya çıxan problemlərin həllində yaxından kömək göstərilmişdir.

Qlobal İqtisadi Araşdırmalar Mərkəzi İqtisadi İnkişaf Nazirliyinin dəstəyi ilə Şəki şəhərində sahibkarlar üçün "Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün özəl sektor üçün səmərəliliyi" mövzusunda seminar keçirilmişdir. Tədbirdə Ümumdünya Ticarət Təşkilatının prinsipləri, bu təşkilata daxilolmanın ölkə, xüsusilə də özəl sektor üçün faydası və digər məsələlər müzakirə olunmuşdur. Azərbaycan Dövlət İqtisad Universiteti, Şəki Şəhər İcra Hakimiyyəti və şəhər bələdiyyəsinin birgə təşkilatçılığı ilə Şəkidə "Qlobal maliyyə böhranı və regional inkişafda yeni strategiyalar" mövzusunda regional elmi-praktiki konfrans keçirilmişdir.

Ötən il rayonda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunan məhsul və xidmətlərin ümumi məbləği 205 milyon 636 min manat olmuşdur. Bu göstərici 2007-ci ilə nisbətən 38,2 faiz, 2003-cü illə müqayisədə isə 3,8 dəfə çoxdur. Ötən il Şəkidə 6571 yeni iş yeri açılmışdır. Həmin iş yerlərindən 679-u daimi, 5892-si müvəqqəti və mövsümi iş yerləridir. Ümumiyyətlə, 2003-cü il oktyabr ayının 1-dən 2009-cu il yanvarın 1-nə kimi, rayonumuzda 26073 yeni iş yeri açılmışdır. Bunun 5538-i daimi iş yerləridir.

2008-ci ildə Şəkidə illik istehsal gücü 2 milyon kv. metr olan yeni istehsal müəssisəsi - tikinti-quraşdırma işlərində geniş tətbiq olunan Sendviç panelləri istehsal edən müəssisə fəaliyyətə başlamışdır. Burada istehsal olunan məhsullar böyük zavod və fabriklərin, iritutumlu soyuducuların, anbarların, idman və turizm komplekslərinin, kottеclərin, villaların tikintisində istifadə oluna bilər.

**Sevil İsmayılova, "Şəki-İpək" ASC-nin Həmkarlar Təşkilatının sədri:**

- Rayonumuzun ən iri istehsal müəssisəsi olan "Şəki-İpək" ASC-də yeni sahənin, pambıq sapəyirmə sexinin quraşdırılması başa çatmışdır. İllik istehsal gücü 1700 ton pambıq sap olan bu sexdə 120 nəfər daimi işlə təmin olunmuşdur. Bu günlərdə müəssisədə yeni, daha keyfiyyətli xam ipək istehsal edən baramaçan dəzgahlar quraşdırılaraq istifadəyə verilmişdir. Çin Xalq Respublikasından gətirilən bu avadanlıqlar məhsulun keyfiyyətini yüksəltməklə yanaşı, burada çalışan insanların əməyinin də yüngülləşdirilməsinə şərait yaratmışdır.

Nazim İbrahimov: - Rayonumuzda ötən illərdə olduğu kimi, bu ildə kənd təsərrüfatının mövcud sahələrinin müasir elmi nailiyyətlər əsasında inkişaf etdirilməsi, məhsul istehsalının artırılması, özəl bölmənin daha da genişləndirilməsi diqqət mərkəzində saxlanılmış, ərzaq təhlükəsizliyi məsələlərinin prioritet əhəmiyyətə malik olduğu nəzərə alınaraq aqrar sahənin inkişafı üçün bütün zəruri tədbirlər görülmüşdür. Taxılçılığın, üzümçülüyün, meyvəçiliyin inkişafına diqqət artırılmışdır. Rayonda kənd təsərrüfatının aparıcı sahələrindən birini heyvandarlıq təşkil edir. Bizim üçün olduqca sevindirici haldır ki, cənab Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şəkiyə səfərləri çərçivəsində sentyabrın 19-da rayonumuzun ən iri heyvandarlıq müəssisəsi olan "Aqro-İndastri" MMC-nin süd emalı zavodunun açılışında iştirak etmişdir. Şəki-Oğuz yolunun kənarında 70 hektar ərazidə yerləşən müasir tipli heyvandarlıq kompleksinin inşasına 2006-cı ildən başlanmışdır. Ümumi dəyəri 7,28 milyon avro olan kompleksdə damazlıq və südçülük sahəsi, pendir zavodu və mal-qara üçün yem istehsalı sexi mövcuddur. Kompleksə Hollandiyadan yüksək məhsuldarlığı olan 660 baş cins inək gətirilmiş, mexanikləşdirilmiş tövlələr tikilmişdir. İcarəyə götürülmüş 400 hektara yaxın ərazidə heyvanlar üçün zəngin yem ehtiyatı yaradılmışdır. Gün ərzində müəssisədə 15 min litr süd istehsal olunmuşdur. Möhtərəm Prezident bütün Cənubi Qafqazda ən iri heyvandarlıq kompleksi olan bu müəssisədə görülən işləri yüksək qiymətləndirmiş, bölgələrdə bu cür müəssisələrin yaradılmasının xüsusi əhəmiyyətə malik olduğunu bildirmişdir.

Çələbixan qəsəbəsi yaxınlığında inşa olunan üzüm emalı müəssisəsinin fəaliyyətə başlaması üzümçülüyün inkişafına əhəmiyyətli şəkildə təsir göstərəcək. "Aqroinvestkom" MMC-nin inşa etdiyi şərab zavodunun tikintisi artıq başa çatmaq üzrədir. Zavodun ümumi dəyəri 7 milyon avrodur. 4 hektar ərazini əhatə edən zavodda üzüm emalı sexi, inzibati bina və yardımçı tikililər inşa edilmişdir. Zavodda İtaliyanın "Bella Doffola SPA" şirkətinə məxsus 4,9 milyon avro dəyərində ən müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Müəssisə ildə 2 min ton üzüm emal etmək gücünə malik olacaqdır.

Cəyirli kəndinə yaxın ərazidə axan Əlicançay üzərində inşa edilən su bəndi və 14 km uzunluğunda kanal istismara verilmək ərəfəsindədir. Bunun nəticəsində rayonun uzun illər quraqlıq problemi ilə üzləşən 4 min hektardan artıq sahəsinin suvarılması mümkün olacaqdır. Eyni zamanda, həmin ərazidə yerləşən bir sıra kəndlərin içməli su ilə təchizatı daha da yaxşılaşacaqdır.



Zərinə Cavadova, Şəki Şəhər İcra Hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini: - Azərbaycan Prezidentinin xüsusi sərəncamına əsasən "Ümumtəhsil məkəblərinin əsaslı təmiri və yeni məktəb binalarının tikintisi üzrə Dövlət Proqramı" çərçivəsində şəhər 10 saylı orta məktəbinin əsas korpusu və şəhər 3 saylı orta məktəbin binası əsaslı təmir olunaraq şagirdlərin istifadəsinə verilmişdir. Aydınbulaq kəndində 220 şagird yerlik, Kosalı və Aşağı Kəldək kəndlərinin hər birində isə 80 şagird yerlik yeni məktəb binaları tikilərək istifadəyə verilmişdir. Yaxın günlərdə Baş Göynük və Kiçik Dəhnə kəndlərinin hər birində 640 yerlik, Dərəcənnət kəndində 240 şagird yerlik məktəblər istifadəyə veriləcəkdir. Növbəti illərdə Şəkidə 14 yeni məktəb binasının tikilməsi, 42 məktəbin əsaslı təmir olunması nəzərdə tutulmuşdur.

Şəkidə turizm infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülmüşdür. Burada hər il 70 min nəfər turizm xidmətindən istifadə edir ki, onların da 2 min nəfərini xarici turistlər təşkil edir.

Turizmin inkişafı rayon iqtisadiyyatının inkişafına, əhalinin işlə təmin olunmasına, nəqliyyat, rabitə, ticarət xidmətinin yüksəlməsinə güclü təkan vermişdir. İndiyədək "Ümid", "Şəki safarisi", "Cənnət bağı" turizm istirahət mərkəzləri istifadəyə verilmiş, Fazıl kəndində yerləşən "Təpəbaşı" nekropolunda son tamamlama işləri başa çatdırılmışdır. Bu nadir mədəniyyət abidəsi artıq şəhərimizin turizm marşrutuna daxil edilmişdir.

Nazim İbrahimov: - Bu il Şəki Regional Aqroservis və Təchizat bazasında iki iri həcmli anbar binasının, 12 min ton tutumu olan regional gübrə anbarının, meyvə-tərəvəz saxlanması üçün soyuducu anbarın, tutumu 10 min ton olan taxıl anbarının, tutumu 5 min ton olan 2 tərəvəz saxlama kamerasının inşası, ildə 3 min ton hind toyuğu əti, 4,5 ton broyler, 100 min ədəd yumurta istehsal edən Şəki Quşçuluq Kompleksinin yaradılması, eyni zamanda, atçılıq, ovçuluq turizm komplekslərinin inşasına başlanılması nəzərdə tutulmuşdur.

Söhbətin sonunda Nazim İbrahimov xüsusi vurğuladı ki, Şəkidə son illər ərzində bütün sahələrdə əldə edilən uğurlar bu il də davam etdiriləcək, yeni nailiyyətlərin qazanılması üçün qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

***Telman NƏZƏRLİ,***
***"Azərbaycan"***

## Masallı rayonunun Güllütəpə kəndində on bir ailəyə yeni evlərin açarları təqdim edilmişdir

Milli Qurtuluş Günü ərəfəsində Masallı rayonunun Güllütəpə kəndində təhlükəli torpaq sürüşməsi zonasında yerləşən 11 ailəyə yeni fərdi evlərin açarları təqdim edilmişdir.

2008-ci il martın 3-də kənddə baş vermiş torpaq sürüşməsi nəticəsində təhlükəli zonadan köçürülən 11 ailənin hər biri üçün ayrılmış 0,06 hektar həyətyanı torpaq sahəsində 73,42 kvadratmetr sahəsi olan üçotaqlı fərdi ev və yardımçı tikililər inşa edilmişdir. Ərazidə qazılan artezian quyusundan bütün yeni evlərə içməli su xətti çəkilmişdir.

Fövqəladə Hallar Nazirliyinin sifarişi ilə "Caspian Truit Co" MMC tərəfindən tikilən yeni fərdi evlərin ümumi smeta dəyəri 685 min 269 manatdır.

Mərasimdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin nümayəndəsi Əsgər Həsənov, kəndin ağsaqqalları, yeni evlərin sakinləri və ictimaiyyətin nümayəndələri çıxış edərək əlamətdar gün - Milli Qurtuluş Günü ərəfəsində kənd sakinlərinə ərməğan edilən bu gözəl töhfəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

***AzərTAc***






# Milli Qurtuluş Günündə Zaqatalada silsilə tədbirlər keçirilib

***Milli Qurtuluş Günü Zaqatalada da geniş bayram tədbirləri ilə qeyd olunmuşdur. Əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri və qonaqlar Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət etmiş, abidənin önünə əklil və tər çiçəklər düzmüşlər.***

"Milli Qurtuluş Günündən başlanan inkişaf" mövzusunda keçirilmiş elmi-praktik konfransda rayon icra hakimiyyətinin başçısı Asif Əsgərovun məruzəsi dinlənilmişdir. Məruzədə 1993-cü ilin iyun hadisələri zamanı ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın parçalanma təhlükəsindən xilas edilməsi naminə fədakarlığından danışılmışdır. Qeyd edilmişdir ki, hazırda Azərbaycan ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq böyük uğurlara qovuşmaqdadır.

Milli Qurtuluş Günü ərəfəsində rayonda bir çox yeni obyektlərin açılışına həsr olunmuş mərasimlər də keçirilmişdir. Zaqatala şəhərinin mərkəzində "Azərpoçt" Dövlət Müəssisəsinin rayon filialının yeni inşa olunmuş inzibati binasının açılışı olmuşdur. Dövlət vəsaiti hesabına yeni inşa edilmiş bu ikimərtəbəli, 15 otaqdan və əməliyyat zalından ibarət binada müasir avadanlıqlar quraşdırılmış, əhaliyə yüksək səviyyədə xidmət göstərmək üçün hər cür şərait yaradılmışdır. Tədbirdə "Azərpoçt" Dövlət Müəssisəsinin baş direktoru Qəmbər Bəybalayev də iştirak etmişdir.

Rayonda Mamrux kəndində ümumi sahəsi 135 kv.metr olan, 5 otaqdan ibarət yeni istifadəyə verilmiş həkim ambulatoriyası Səhiyyə Nazirliyi tərəfindən müasir inventarlarla təmin edilmişdir.

Qımır kəndində isə dövlət büdcəsi hesabına yeni inşa olunmuş 220 şagird yerlik məktəb binasının açılış mərasimi keçirilmişdir. 1930-cu ildən fəaliyyət göstərən Qımır kənd orta məktəbinin qəzalı vəziyyətdə olan köhnə binasının yerində qısa müddət ərzində 11 sinif otağı, fizika və kimya kabinetləri, komputer otağı, idman və iclas zalları və bufeti olan müasir məktəb binası tikilmiş və hər cür lazımi avadanlıqlala təchiz edilmişdir.

Tədbir iştirakçıları büdcə vəsaiti hesabına əsaslı təmir olunmuş mərkəzi rayon xəstəxanasının açılışına da qatılmışlar. Yüksək səhiyyə xidməti üçün burada hər cür şərait yaradılmışdır. Səhiyyə naziri Oqtay Şirəliyev açılış mərasimində iştirak etmişdir.

"Tac" şadlıq sarayının və "SİTİ SENTER" ticarət mərkəzinin açılışı da zaqatalalılara sevinc bəxş etmişdir. Qeyd etmək yerinə düşər ki, bu obyektlərdə 150 nəfər işlə təmin olunmuşdur.

Bütün açılış mərasimlərindəki çıxışlarda bir fikir xüsusi vurğulanmışdır ki, Milli Qurtuluş Günündən başlanan möhtəşəm inkişaf yolu ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

***T.NƏZƏRLİ,***
***"Azərbaycan"***

